K O N S T İ T U S İ Y A   H Ü Q U Q U

**SEVİNC HÜSEYNOVA**
**Hüquq və İnsan Haqları İnstitutunun**
**"Cinayət hüququ və cinayət prosesi" şöbəsinin elmi işçisi**

# YAŞAMAQ HÜQUQUNUN MÜDAFİƏSİ: AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASININ MÜDDƏALARI KONTEKSTİNDƏ

Yaşamaq insanın təməl hüquqlarından biridir. Digər hüquq və azadlıqların əsasında yaşamaq hüququ dayanır. Məhz ona görə də insan hüquqlarının sistemini müəyyən edən ən mühüm beynəlxalq sənədlərdə yaşamaq hüququ əsas hüquqlar sırasında birinci yerdə gəlir.

Azərbaycan Respublikasının 2001-ci ilin yanvar ayının 25-də Avropa Şurasına daxil olması və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasını ratifikasiya etməsi onun demokratik ənənələrə, ədalətə, yurisdiksiyası altında olan insanlar üçün fundamental hüquq və əsas azalıqların təmininə sadiqliyini ifadə etdi.

Respublikamızın universal və regional xarakterli beynəlxalq təşkilatlara daxil olması və çoxsaylı beynəlxalq müqavilələrə qoşulması insan hüquqlarının müdafiəsinə yönələn hüquqi mexanizmin yaradılmasında mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası tərəfdar çıxdığı beynəlxalq müqavilələri özünün qanunvericilik sisteminə daxil etməklə beynəlxalq öhdəliklərini yerinə yetirmək yolunu tutmuşdur. Beynəlxalq müqavilələrin müddəaları dövlətlər arasındakı beynəlxalq münasibətlərin tənzimlənməsinin, dövlətlərarası əməkdaşlığın inkişafının əsas vasitəsi olmaqla milli qanunvericiliyin tərkib hissəsinə çevrilməkdədir.

İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində mövcud müqavilə-lərdə dövlətlərin üzərlərinə götürdüyü öhdəliklər iştirakçı dövlətlərə deyil, onların yurisdiksiyası altında olan insanlara ünvanlanmaqla, ayrı-ayrı fərdlərin hüquqlarının müdafiəsinə yönəlmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinə əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir. Azərbaycan Respublikası "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının iştirakçısı və onu 2002-ci ilin aprel ayının 15-də ratifikasiya etmiş dövlət kimi Konvensiya və onun Protokollarının təfsiri və tətbiqi məsələləri üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin yurisdiksiyasının məcburiliyini tanıyır. Azərbaycan Respublikası insanların Konvenisyada nəzərdə tutulan hüquqlarını təmin etmək öhdəliyini daşıyır. Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının Konstitusiyası və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası təcrübədə həyata keçirilən hüququn səmərəliliyinə təminat verməyə istiqamətlənmişdir.

Yaşamaq hüququ Birləşmiş Millətlər Təşkilatının (BMT) 10 dekabr 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 3-cü maddəsində – "Hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir" kimi müddəasında öz əksini tapmışdır (6). Bu hüquq İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasının (Roma, 4.XI.1950 – 3 sentyabr 1953-cü ildə qüvvəyə minmişdir) 2-ci maddəsində də təsbit edilmişdir: "Hər kəsin yaşamaq hüququ qanunla qorunur. Heç kəs qanunla ölüm cəzası nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa həyatından məhrum edilə bilməz", "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın (16 dekabr 1966-cı il) 6-cı maddəsində deyidir: "Yaşamaq hüququ hər bir insanın ayrılmaz hüququdur. Bu hüquq qanunla qorunur. Heç kəs özbaşına həyatdan məhrum edilə bilməz" (8). "İnsan hüquqlarına dair" Amerika Konvensiyasının 4-cü maddəsi, "Xalqların və insanların hüquqlarına dair" Afrika Xartiyasının 4-cü maddəsi (1981-ci il)

(9) yaşamaq hüququnu nəzərdə tutur.

Yaşamaq hüququnun məzmunu ilə bağlı mühüm məsələ insan həyatının başlandığı və başa çatdığı anın müəyyən edilməsi ilə bağlıdır.

Yaşamaq hüququnun şamil olunduğu "hər kəs"in hələ doğulmayan uşaqları əhatə edib-etməməsi məsələsində konsensus yoxdur. Qeyd olunan beynəlxalq sənədlərdən yalnız Amerika Konvensiyası yaşamaq hüququnu açıq şəkildə rüşeymə (ana bətnində olan embriona) şamil edir. Konvensiyaya görə yaşamaq hüququ, "ümumiyyətlə, maya bağlandığı andan qanunla qorunur".

Azərbaycan Respublikası Konstitusiyanın İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi adlanan 24-cü maddəsinin 2-ci bəndində deyilir ki, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

Mülki Məcəllənin 25-ci maddəsinin 2-ci bəndi Konstitusiya-nın müvafiq normasını möhkəmləndirərək, nəzərdə tutur ki, fiziki şəxsin hüquq qabiliyyəti onun doğulduğu an əmələ gəlir və ölümü ilə xətm edilir, beyinin fəaliyyətinin dayanması ölüm anı sayılır.

Əvvəllər ölüm anının başlanğıcı insanda ürək döyüntüsünün və tənəffüsün dayanması anından sayılırdı. Hazırda isə ürəyin döyünməsi həyatın mövcudluğunu təsdiq edən əsas dəlil sayılmır. İnsanın mərkəzi sinir sistemində üzvi dəyişikliyin baş verməsi isə mübahisəsiz olaraq həyatın sonu kimi qəbul edilir. D.İ.Marçenkonun fikrincə, insanda ürək döyüntüsünün və tənəffüsün dayanmasından 30 dəqiqə keçdikdən sonra bioloji ölüm baş verir (5, 22).

Mülki Məcəllənin 25-ci maddəsinin 3-cü bəndində isə "Vərəsə olmaq hüququ maya bağlandığı andan əmələ gəlir, bu hüququn həyata keçirilməsi isə yalnız doğumdan sonra mümkündür". Azərbaycan Respublikası Mülki Məcəllənin elmi-praktik kommentariyasında qeyd edilir ki, hüquq qabiliyyəti fiziki şəxsin doğulduğu an əmələ gəlir və ölümü ilə xitam olunur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 oktyabr 2003-cü il tarixli, 145 nömrəli qərarı ilə təsdiq olunmuş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 2.21-ci bəndinə əsasən, uşağın ölümü doğumdan sonra dərhal baş verdikdə (bir neçə dəqiqə yaşaması halı da nəzərə alınmaqla) doğum və ölüm haqqında iki akt qeydi tərtib olunur. Uşaq mayası bağlandığı andan vərəsəlik hüququ əldə edir və nə qədər yaşamasından asılı olmayaraq hüququn subyekti sayılır (4).

İnsanın yaşamaq hüququnun cinayət-hüquqi mühafizəsinə dair müddəalar ilk növbədə Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsindən və cinayət qanunundan doğur.

Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsinin 1-ci hissəsi istisna olmaqla, digər hissələrində insanın yaşamaq hüququnun konstitusion-hüquqi mühafizəsi təsbit edilmişdir. Həmin maddənin 2-ci, 3-cü və 4-cü hissələrində insanın yaşamaq hüququndan məhrum edilməsini, yəni öldürülməsini nəzərdə tutan müddəalar öz əksini tapmışdır. Başqa sözlə, Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsinin 2-ci, 3-cü və 4-cü hissələrində insanı həyatdan məhrum etmənin qanuni hallarının dairəsi müəyyən olunmuşdur. Konstitusiyanın 27-ci maddəsinin sadalanan hissələrində «qanuni adam öldürmə» hallarının dəqiq və müstəsna siyahısı verilmişdir ki, digər hallarda insanın həyatdan məhrum edilməsi Konstitusiya normalarının pozuntusu sayılır və bütün hallarda cinayət məsuliyyətinə səbəb olur.

Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsinin 2-ci hissəsinin göstərişinə görə dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır. Göründüyü kimi, həmin normada insanın yaşamaq hüququndan məhrum edilməsinin üç halı müəyyən edilmişdir:

1) dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi;

2) məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi;

3) qanunla nəzərdə tutulmuş digər hallar.

Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi istər müharibə dövründə olsun, istərsə də dinc dövrdə olsun, bütün hallarda qanuni hərəkət kimi qiymətləndirilir. Lakin nəzərə almaq lazımdır ki, bu halda insanın yaşamaq hüququndan (həyatdan) məhrum edilməsi bir neçə şərtdən asılı edilmişdir. Birinci şərt ondan ibarətdir ki,

dövlətə silahlı basqın edildiyi hallarda insanı həyatdan məhrum etmək olar. Silahsız müdaxilə edildiyi hallarda düşmən əsgərlərinin öldürülməsi Konstitusiyaya zidd əməl kimi qiymətləndirilməlidir. İkinci şərt onda ifadə olunur ki, öldürülən şəxs yalnız düşmən əsgərləri ola bilər. Deməli, bu şərtin mövcudluğu üçün Azərbaycan xalqının və dövlətinin xəyali düşməni deyil, real düşməni meydanda olmalıdır. Başqa sözlə, ya Azərbaycan dövləti ilə müharibə vəziyyətində olan dövlətlərin, yaxud Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyətinin həyata keçirilməsi niyyəti ilə onun ərazisinə müdaxilə edən istənilən əsgər həyatdan məhrum edilə bilər. Hesab edirik ki, Konstitusiyanın 27-ci maddəsinin 2-ci hissəsində "əsgər" sözündən istifadə edilməsi Azərbaycan Respublikasına silahlı basqın edən digər şəxslərin öldürülməsini istisna etdiyinə görə qəbuledil-məzdir. Ona görə ki, Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyətini həyata keçirən başqa dövlətlərin xüsusi təyinatlı digər qüvvələri, həmçinin dövlətə bağlı olmayan sair şəxslər də dövlətimizə silahlı basqın edə bilərlər. Bu halda onların öldürülməsini qanunsuzmu sayacığıq?

Beləliklə, hesab edirik ki, Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsinin 2-ci hissəsində "əsgərlərinin" sözü "şəxslərin" sözü ilə əvəz edilməli və həmin hissənin mətni aşağıdakı redaksiyada verilməlidir:

Dövlətə silahlı basqın edən şəxslərin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır.

Respublikamızın Əsas Qanunu məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi zamanı insanın yaşamaq hüququndan (həyatdan) məhrum edilməsini də qanuni sayır. Lakin bu müddəanı ayrılıqda götürüb tətbiq etmək olmaz. Bu müddəa Konstitusiyanın 27-ci maddəsinin 3-cü hissəsinin müddəaları ilə birlikdə dəyərləndirilməlidir. Belə ki, Konstitusiyasının 27-ci maddəsinin III hissəsində müstəsna cəza tədbiri kimi ölüm cəzasının, tam ləğv edilənədək, yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə qanunla müəyyən edilə bilməsinə dair tələb müəyyən edilmişdir. Konstitusiyanın 27-ci maddəsinin 2-ci hissəsi ölüm cəzasının istənilən vaxt qanunla nəzərdə tutula bilməsinə işarə etsə də, 3-cü hissə həmin cəza növünün yalnız tam ləğv edilənədək tətbiq edilə bilməsinə dair göstəriş təsbit edir. Azərbaycan Respublikasının 1998-ci il 10 fevral tarixli Qanunu ilə dövlətimizin ölüm cəzasının tətbiqindən imtina etdiyi nəzərə alındıqda, həmin tarixdən ölüm cəzasının icrası ilə əlaqədar insanın yaşamaq hüququndan (həyatdan) məhrum edilməsi qanuni sayılmayacaqdır.

Lakin nəzərə alsaq ki, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya dair 6 saylı Protokola (Strasburq, 28 aprel 1983-cü il) əsasən ölüm cəzasının ləğvinə dair müddəalara əsasən Avropa Şurasının ayrı-ayrı üzv dövlətlərində baş vermiş təkamül ölüm cəzasının ləğv olunması xeyrinə ümumi tendensiyanı ifadə edir:

"Maddə 1. Ölüm cəzasının ləğvi

Ölüm cəzası ləğv olunur. Heç kəs belə cəzaya məhkum edilə və ya belə cəzalandırıla bilməz.

Maddə 2. Müharibə zamanı ölüm cəzası

Dövlət müharibə dövründə və ya qaçılmaz müharibə təhdidi zamanı törədilmiş əməllərə görə öz qanunvericiliyində ölüm cəzasını nəzərdə tuta bilər; bu cür cəza yalnız qanunla ləğv olunmuş tələblərlə və onunu müddəalarına müvafiq olaraq tətbiq edilə bilər. Dövlət həmin qanunun müvafiq müddəaları ilə Avropa Şurasının Baş Katibinə məlumat verir".

Göründüyü kimi, Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsinin 3-cü hissəsini Avropa Konvensiyasının 6 nömrəli protokolunda nəzərdə tutulmuş ölüm cəzası ilə bağlı maddələrdən kənarda dəyərləndirmək anlaşılmazlığa və mübahisəyə səbəb olar.

Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsinin 2-ci hissəsi insanın yaşamaq hüququndan (həyatdan) məhrum edilməsinin qanuni hallarından biri kimi "qanunla nəzərdə tutulmuş digər hallar"ı ehtiva edir. Bu hal insanın yaşamaq hüququndan (həyatdan) məhrum edilməsinin "toplam" anlayışını nəzərdə tutur. Ona görə də bu halı Konstitusiyasının 27-ci maddəsinin 4-cü hissəsindən kənarda dəyərləndirmək olmaz. Konstitusiyasının 27-ci maddəsinin 4-cü hissəsinə görə, qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın

yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilməsi halları istisna olmaqla, insana qarşı silah işlədilməsinə yol verilmir.

Göründüyü kimi, burada "insana qarşı silah işlədilməsi" ifadəsi əslində silah işlədilməsinin nəticəsi olaraq ölümü də özündə ehtiva edir. Əlbəttə, aydındır ki, silah işlədilmişdirsə, deməli, ölümün baş verməsi mümkündür. Məhz bu nöqteyi-nəzərdən insanın yaşamaq hüququndan (həyatdan) məhrum edilməsinin qanuni hallarından biri kimi "qanunla nəzərdə tutulmuş digər hallar" əslində Konstitusiyasının 27-ci maddəsinin 4-cü hissəsində sadalanan halları da özündə birləşdirir.

Konstitusiyasının 27-ci maddəsinin 4-cü hissəsində sadalanan halların hamısı Azərbaycan Respublikası Cinayət Məcəlləsində cinayət məsuliyyətini və cəzanı aradan qaldıran hallar, yaxud əməlin cinayət olmasını aradan qaldıran hallar qismində dəyərləndirilmişdir.

Konstitusiyanın 27-ci maddəsinin 4-cü hissəsində sadalanan hallardan üçü cinayət qanununda əməlin cinayət olmasını aradan qaldıran hallar sırasında müəyyən olunmuşdur. Cinayət Məcəlləsinin 36.1-ci maddəsinə görə, zəruri müdafiə vəziyyətində, yəni özünü müdafiə edənin və ya başqa şəxsin həyatını, sağlamlığını və hüquqlarını, dövlətin və cəmiyyətin mənafelərini qəsd edənə zərər vurmaq yolu ilə ictimai təhlükəli qəsdən qoruyarkən törədilmiş hərəkət, zəruri müdafiə həddini aşmamışdırsa, cinayət sayılmır. Deməli, zəruri müdafiə vəziyyətində silah işlədilməsi və bunun nəticəsində insanı həyatdan məhrum etmə cinayət sayılmır.

Konstitusiyanın 27-ci maddəsinin 4-cü hissəsinin son zərurətə dair norması Cinayət Məcəlləsinin 38-ci maddəsinin müddəalarında öz əksini tapmışdır. Cinayət Məcəlləsinin 38.1-ci maddəsinə görə son zərurət vəziyyətində, yəni şəxsin özünün və ya başqa şəxslərin həyatını, sağlamlığını və hüquqlarını, dövlətin və cəmiyyətin mənafelərini bilavasitə qorxu altına alan təhlükəni aradan qaldırmaq üçün bu Məcəllə ilə qorunan obyektlərə zərər vurmaq yolu ilə törədilmiş hərəkət, əgər həmin vəziyyətdə bu təhlükəni başqa vasitə ilə aradan qaldırmaq mümkün deyildirsə və bu zaman son zərurət həddinin aşılmasına yol verilməmişdirsə, cinayət sayılmır. Deməli, bu halda da şəxsin öldürülməsi, cinayət sayılmayacaqdır.

Konstitusiyanın 27-ci maddəsinin 4-cü hissəsinin "cinayətkarın yaxalanması və tutulması"na dair norması Cinayət Məcəlləsinin 37-ci maddəsinin müddəalarında öz əksini tapmışdır. Cinayət Məcəlləsinin 37.1-ci maddəsinə görə cinayət törətmiş şəxsin səlahiyyətli dövlət hakimiyyəti orqanlarına gətirilməsi və ya yeni cinayətlər törətməsinin qarşısının alınması məqsədi ilə tutulduğu zaman ona zərər yetirilməsi, əgər həmin məqsəd üçün bütün digər təsir imkanlarından istifadə lazımi nəticə verməmişsə və bunun üçün zəruri olan tədbirlərin həddi aşılmamışdırsa, cinayət sayılmır. Deməli, bu halda da şəxsin öldürülməsi, cinayət sayılmayacaqdır.

Göründüyü kimi, Konstitusiyanın 27-ci maddəsinin 4-cü hissəsinin zəruri müdafiəyə, son zərurətə və cinayətkarın yaxalanması və tutulmasına dair normaları Cinayət Məcəlləsinin normaları ilə müqayisədə daha məhdud məna ifadə edir. Belə ki, Cinayət Məcəlləsinin 36-cı, 37-ci və 38-ci maddələri nəinki silah işlədilməsi, həm də digər bütün hallarda həmin maddələrdə göstərilən şərtlər daxilində insanın həyatdan məhrum edilməsini cinayət hesab etmir.

Həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması hallarında da insanın yaşamaq hüququndan (həyatdan) məhrum edilməsini Konstitusiyasının 27-ci maddəsinin 4-cü hissəsi qanuni sayır. Həbsdə olanın həbs yerindən qaçması ədalət mühakiməsi əleyhinə olan cinayət kimi CM-in 304-cü maddəsində ("Azadlıqdan məhrum etmə və ya həbs yerindən, yaxud mühafizə altından qaçma") nəzərdə tutulmuşdur. Həmin cinayəti törədən şəxsə qarşı silah işlədilməsi və onun qətlə yetirilməsi əslində Cinayət Məcəlləsinin 37-ci maddəsinin müddəaları əsasında cinayət sayılmaya bilər. Əməlin cinayət sayılmasını aradan qaldıran başqa hallar yoxdursa, digər bütün hallarda onun öldürülməsi cinayət sayılacaqdır.

Dövlətə qarşı qiyam CM-in 280-ci maddəsində ("Silahlı qiyam"), dövlət çevrilişində ifadə olunan əməllər isə CM-in 278-ci maddəsində ("Hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama") xüsusilə ağır

cinayətlər kimi nəzərdə tutulmuşdur. Həmin cinayətləri törədən şəxslərin də həyatdan məhrum edilməsini Azərbaycan Respublikasının Konstitusiyası hüquqauyğun əməl kimi qiymətləndirir.

Beləliklə, Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsində təsbit olunmuş hallar istisna olmaqla insanın həyatdan məhrum edilməsi qanuni sayılmır və məsuliyyətə səbəb olur.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2015
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası. Bakı: Hüquq Yayın Evi, 2015
3. Azərbaycan Respublikası Mülki Məcəlləsi. Bakı: Qanun, 2016
4. Azərbaycan Respublikası Mülki Məcəlləsinin elmi-praktik kommentariyası. 5 cilddə, I cild, MM-in 1-384-cü maddələrinin şərhi. Bakı: Hüquq Yayın evi, 2017
5. Марченко Д.И. «Преступления против жизни». Ростов-на-Дону, 2004
6. İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə Preambula Bəşər ... www.justice.gov.az/beyanname.doc
7. insan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında avropa ... www.migration.gov.az/.../62ebf1c9cde2f7dbc040988e97fbc..
8. Mülki və Siyasi hüquqlar haqqında Pakt huquqsunas.tr.gg/M.ue.lki-v%26%23601%3B-Siyasi-h.ue.q...
9. İnsan Hüquqlarına dair Amerikaarası Konvensiya və Xalqların və ... www.anl.az/down/meqale/ses/2015/sentyabr/454261.htm


***Açar sözlər:*** *yaşamaq hüququ, insan hüquqları, ölüm anı, cinayət-hüquqi mühafizə, zəruri müdafiə, cinayət məsuliyyətindən azad etmə, həyatdan məhrum etmə, cinayətkarın tutulması, beynəlxalq hüquqi aktlar*

**Sevinj Huseynova**
*Research associate of Department on Criminal law and criminal procedure of Institute of the Right and Human rights*

## PROTECTION OF THE RIGHT FOR LIFE: IN THE CONTEXT OF CONSTITUTION'S PROVISIONS OF THE AZERBAIJAN REPUBLIC

### SUMMARY


In the international legal acts, the right for life is included in the number of fundamental rights and stand in the first place in the system of human rights.

Protection of the right to human life enshrined in article 27 of the Constitution of the Azerbaijan Republic. In parts of the 2nd, 3rd and 4th this article, have found the reflection of a situation, deprivations of human life allowing an opportunity. The following circle of cases of a valid assumption of denial of life of people has defined here:

1) Murder of enemy soldiers as a result of an armed attack on the state;

2) By application of the court verdict, which has taken legal, effect about the death penalty;

3) In other cases provided by the law.

Use of the word "soldier" regarding the 2nd article 27 of the Constitution excludes murder of other persons who have committed an armed attack against the Azerbaijan Republic.

In spite of the fact that part 2 of article 27 of the Constitution provides a possibility of application of the death penalty at any time, the 3rd section contains the instruction on the implementation of this type of punishment only before his full cancellation. To consider that the Law of the Azerbaijan Republic of February 10, 1998, our state has refused the application of the death penalty, since this date deprivation of human life in connection with the execution of the death penalty, has to be considered as illegal.

All Constitutions of a circumstance listed regarding the 4th article 27 regarded in the Criminal Code of the Azerbaijan Republic as the circumstances eliminating criminal liability and punishment or the circumstances removing crime from the act.

The Constitutions of the norm on necessary defense, emergency, exposure and detention of the criminal, which contained in part 4 of article 27, in comparison with standards of the Criminal Code express narrower sense. So, according to reports 36, 37 and 38 of the Criminal Code not only at the use of weapons but also in all other cases specified in these articles, deprivation of human life isn't considered a crime.

Thus, except for the cases enshrined in article 27 of the Constitution of the Azerbaijan Republic, deprivation of the person of life isn't lawful and leads to the emergence of responsibility.

***Key words:*** *right for life, human rights, moment of death, criminal legal protection, necessary defense, release from criminal liability, deprivation of life, detention of the criminal, international legal acts*

**Севиндж Гусейнова**
*Научный сотрудник отдела «Уголовного права и уголовного процесса»*
*Института Права и Прав Человека*

## ЗАЩИТА ПРАВА НА ЖИЗНЬ: В КОНТЕКСТЕ ПОЛОЖЕНИЙ КОНСТИТУЦИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

### РЕЗЮМЕ

В международных правовых актах право на жизнь входит в число основных прав и стоит на первом месте в системе прав человека. Охрана права на жизнь человека закреплена в статье 27 Конституции Азербайджанской Республики. В частях 2-й, 3-й и 4-й этой статьи нашли отражение положения, допускающие возможность лишения жизни человека. На самом деле здесь был определен следующий круг случаев законного допущения лишения жизни людей: убийство вражеских солдат в результате вооруженного нападения на государство; на основании применения вступившего в законную силу приговора суда о смертной казни; в других случаях, предусмотренных законом.

Использование слова "солдат" в части 2 статьи 27 Конституции исключает убийство других лиц, совершивших вооруженное нападение на Азербайджанскую Республику. Несмотря на то, что часть 2 статьи 27 Конституции предусматривает возможность применения смертной казни в любое время, 3-я часть содержит указание о применении этого вида наказания только до его полной отмены. Если учесть, что Законом Азербайджанской Республики от 10 февраля 1998 года, наше государство отказалось от применения смертной казни, начиная с этой даты лишение жизни человека в связи с исполнением смертной казни, должно считаться незаконным.

Все перечисленные в части 4 статьи 27 Конституции обстоятельства расцениваются в Уголовном Кодексе Азербайджанской Республики в качестве обстоятельств, устраняющих уголовную ответственность и наказание или обстоятельств, устраняющих преступность деяния.

Содержащиеся в части 4 статьи 27 Конституции нормы о необходимой обороне, крайней необходимости, уличении и задержании преступника, по сравнению с нормами Уголовного Кодекса выражают более узкий смысл. Так, согласно статьям 36, 37 и 38 Уголовного Кодекса не только при применении оружия, но и во всех других случаях, указанных в этих статьях, лишение жизни человека не считается преступлением.

Таким образом, за исключением случаев, закрепленных в статье 27 Конституции Азербайджанской Республики, лишение человека жизни не является законным и ведет к возникновению ответственности.

***Ключевые слова:*** *право на жизнь, права человека, миг смерти, уголовно-правовая охрана, необходимая оборона, освобождение от уголовной ответственности, лишение жизни, задержание преступника, международно-правовые акты*